BİZNES MÜHİTİ VƏ BEYNƏLXALQ REYTİNQLƏR ÜZRƏ KOMİSSİYANIN "KORRUPSİYA VƏ ŞƏFFAFLIQ" İŞÇİ QRUPUNUN 27 DEKABR 2023-CÜ İL TARİXLİ İCLASININ

PROTOKOLU

Bakı şəhəri — 27 dekabr 2023-cü il

Sədrlik etdi:

Asəf Sarıkişiyev	Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, "Korrupsiya və şəffaflıq" İşçi qrupunun rəhbəri

Görüşdə iştirak etdilər

Kamil Kamilli	Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru, işçi qrupun katibi;
Elçin Nəsibov	Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəis müavini;
Kənan Məlikov	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin rəis müavini;
İfadə Tarverdiyeva	Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Hüquq şöbəsinin məsləhətçisi;

Əliməmməd Nuriyev	"Şəffaflıq–Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İctimai Birliyinin icraçı direktoru;
Nərminə Qardaşxanova	NEQSOL" Beynəlxalq Şirkətlər Qrupunun Korporativ idarəetmə və Komplayens Departamentinin rəhbəri;
Röyanə Seyfəli	"Azərconnect" MMC-nin hüquqşünası;
Firuzə Seyidzadə	"Azercell Telekom" MMC-nin Hüquq şöbəsinin Etika və Komplayens bölməsinin eksperti;
Aydan Nağıyeva	"NEQSOL" Beynəlxalq Şirkətlər Qrupunun baş hüquq məsləhətçisi;
Asim Həşimov	"KPMG Azərbaycan Limited" şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin baş hüquq məsləhətçisi

Gündəlik:

- "Korrupsiya və Şəffaflıq" işçi qrupunun rəhbəri Asəf Sarıkişiyevin giriş sözü;
- "Korrupsiya və Şəffaflıq" işçi qrupunun rəhbəri Asəf Sarıkişiyev tərəfindən 2023-cü il üçün "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülmüş işlərə dair məlumat verilməsi;
- Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəis müavini Elçin Nəsibov tərəfindən 2023-cü il üçün "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülmüş işlərə dair məlumat verilməsi;
- İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin rəis müavini Kənan Məlikov tərəfindən 2023-cü il üçün "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülmüş işlərə dair məlumat verilməsi;
- "Şəffaflıq–Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İctimai Birliyinin icraçı direktoru Əliməmməd Nuriyev tərəfindən 2023-cü il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərə dair məlumat verilməsi;
- 2023-cü il ərzində müvafiq sahədə görülmüş işlər barədə "Azercell Telekom" MMC-nin Hüquq şöbəsinin Etika və Komplayens bölməsinin rəhbəri Sevinc Novruzova tərəfindən məlumat verilməsi;
- Ümumi müzakirələr.

İclasın məzmunu:

İclası giriş sözü ilə açan işçi qrupun rəhbəri Asəf Sarıkişiyev iclas iştirakçılarını qarşıdan gələn "Dünya Azərbaycanlılarının Həmrəyliyi günü" və "Yeni il" bayramı münasibətilə təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzuladı. Daha sonra o, işçi qrupun cari iclasının gündəliyi və "Ekvita" şirkətinin hüquq meneceri Pərvin Ənvərli, "Ekvita" şirkətinin İdarəetmə konsaltinqi üzrə partnyoru Fərid Baxşiyev və "NEQSOL" Beynəlxalq Şirkətlər Qrupunun Etika və Uyğunluq üzrə məmuru Tural Mürsəlovun işçi qrupun üzvlüyünə namizədliyinin irəli sürülməsi barədə məlumat verdi.

Daha sonra işçi qrupun rəhbəri Asəf Sarıkişiyev 2023-cü il üzrə Fəaliyyət Planının "Maraqlar münaqişəsinin tənzimlənməsi", "Korrupsiya halları", "Mülkiyyət hüquqları" və "Yerli və Beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi" indikatorları üzrə prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə geniş məlumat verdi.

Bundan sonra çıxış edən Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin rəis müavini Elçin Nəsibov 2023-cü il üçün Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən görülmüş işlər barədə geniş məlumat verdi.

İclasın davamında çıxış edən İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin rəis müavini Kənan Məlikov işçi qrupun Fəaliyyət Planı üzrə 2023-cü il ərzində İqtisadiyyat Nazirliyi tərəfindən görülmüş işlərlə bağlı iclas iştirakçılarını məlumatlandırdı.

Daha sonra işçi qrupun üzvü – "Şəffaflıq–Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İctimai Birliyinin icraçı direktoru Əliməmməd Nuriyev tərəfindən müvafiq dövr ərzində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş maarifləndirmə tədbirləri və həmin sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı görülmüş işlər barədə geniş məlumat verildi, habelə gələcəkdə sözügedən sahədə dövlət-biznes-vətəndaş cəmiyyəti dialoqunun genişləndirilməsi ilə bağlı təkliflər səsləndirildi.

İclasın davamında çıxış edən "Azercell Telekom" MMC-nin Hüquq şöbəsinin Etika və Komplayens bölməsinin eksperti Firuzə Seyidzadə 23 noyabr 2023-cü il tarixdə Kiçik və Orta Biznesin İnkişaf Agentliyi və təmsil etdiyi qurum tərəfindən birgə təşkil edilmiş təlim barədə görüş iştirakçılarını məlumatlandırdı.

İclasa qonaq qismində dəvət olunmuş Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Hüquq şöbəsinin baş məsləhətçisi İfadə Tarverdiyeva isə Dövlət Xidmətlətr Portalında nəzərdə tutulmuş zəruri məsələlərə dair təqdimatla çıxış etdi.

Qarşılıqlı müzakirələr formatında keçən görüşün sonunda iştirakçılar tərəfindən növbəti il üçün qarşıda duran vəzifələr, işçi qrupun 2024-cü il üzrə "Fəaliyyət Planı" tərtibi və icrası ilə bağlı görülməli işlər və digər mühüm məsələlərə dair çoxşaxəli fikir mübadiləsi aparılmışdır.

Qərara alındı:

1) İşçi qrupun 2023-cü il üçün "Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülmüş işlər müsbət qiymətləndirilsin;

2) İşçi qrupun üzvləri tərəfindən növbəti il ərzində də dövlət-biznes-vətəndaş cəmiyyəti dialoqunun genişləndirilməsi ilə bağlı müvafiq işlərin görülməsi davam etdirilsin; (İşçi qrupun bütün üzvləri);

3) İşçi qrupun 2024-cü il üçün "Fəaliyyət Planı"nın hazırlanması məqsədilə işçi qrupun üzvləri tərəfindən müvafiq tədbirlərə dair rəy və təkliflər 10 yanvar 2024-cü il tarixədək aidiyyəti üzrə təqdim edilsin; (İşçi qrupun bütün üzvləri)

4) Ekvita" şirkətinin hüquq meneceri Pərvin Ənvərli, "Ekvita" şirkətinin İdarəetmə konsaltinqi üzrə partnyoru Fərid Baxşiyev və "NEQSOL" Beynəlxalq Şirkətlər Qrupunun Etika və Uyğunluq üzrə məmuru Tural Mürsəlovun işçi qrupun üzvlüyünə qəbul edilməsi ilə əlaqədar Kommissiyanın Katibliyinə müraciət olunsun;

5) Protokolda qərar alınan müvafiq bəndlər üzrə işçi qrupun katibi tərəfindən işçi qrupun üzvlərinin məlumatlandırılması, bu sahədə koordinasiyanın aparılması və təkliflərin ümumiləşdirilərək işçi qrupun rəhbərinə və Komissiyanın Katibliyinə təqdim edilməsi təmin olunsun (K.Kamilli).

İşçi qrupun rəhbəri: **Asəf Sarıkişiyev**

İşçi qrupun katibi: **Kamil Kamilli**